# Azərbaycanlı hakim "Rio-2016"-nın ədalətli qərarına imza atdı

## **Hicran ŞƏRİFOV:** "Monqolustan və Özbəkistan idmançıları arasında bürünc medal uğrundakı mübarizənin sonunda verdiyim qərar FİLA tərəfindən də dəstəkləndi"



Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunları da başa çatdı. 17 gün davam edən idman bayramı zamanı təəssüf ki, xoşagəlməz olaylar və eyni zamanda, qeyri-adi hadisələr yaşandı.

Məsələn, qadınlar arasında 400 metrə qaçış yarışlarında bahamalı Şaunae Miller qızıl medalı tarixdə görünməmiş üsuldan istifadə edərək - uzanaraq finiş xəttini birinci keçməklə qazandı, üzgüçülüyün 100 m məsafəyə "Batterflay" üsulu ilə yarışmasında 3 idmançı eyni nəticəni göstərməklə gümüş medal qazandı, bürünc medal isə təqdim olunmadı.

Ancaq 4 ilin zirvə yarışının son günündə keçirilən sərbəst güləş üzrə yarışlarda baş verən maraqlı olay isə hələ uzun illər danışılacaq və Beynəlxalq Güləş Federasiyasının hakimlər üçün təşkil etdiyi bütün seminarlarda müzakirə mövzusu olacaq. 65 kq çəki dərəcəsində mübarizə aparan Monqolustan təmsilçisi Mandaxnaran Qanzoriqiyn ilə Özbəkistan güləşçisi İxtiyar Novruzov arasında üçüncü yer uğrunda yarışın son saniyələrində döşək hakiminin verdiyi qərar bürünc medalın sahibini müəyyənləşdirdi. Belə ki, sözügedən mübarizənin bitməsinə 2 saniyə qalmış (5:58) hakimin elan etdiyi qərar həm yan hakimlər, həm də münsiflər heyəti tərəfindən təsdiqləndi və özbək pəhləvan bürünc medala sahib çıxdı. Ancaq monqolustanlı güləşçi və onun məşqçiləri buna etiraz edərək qərarla razılaşmadılar. Hətta məşqçilər etiraz əlaməti olaraq xalçada hamının gözü qarşısında üst idman geyimlərini çıxardılar. İdmançının özü rəqibini təbrik etsə də, döşəyin mərkəzinə gəlməkdən boyun qaçırdı. Bütün bu etirazlara baxmayaraq, hakimin son saniyələrdə verdiyi qərar bir daha təsdiqləndi.

Qeyd edək ki, qarşılaşmanın son dəqiqəsində 7:6 hesabı ilə öndə olan monqol güləşçi rəqabəti davam etdirmək əvəzinə mübarizədən yayınmağa başlayıb. O, iki əlini qaldıraraq qələbəni bayram edib və tatamidə qaçmağa başlayıb. Bunu görən hakim özbək güləşçinin xeyrinə 1 xal verib. Beləliklə, hesab bərabərləşib və özbək idmançı xalı sonuncu aldığından qələbə ona verilib.

Artıq Olimpiada başa çatsa da, beynəlxalq mətbuatda, sosial şəbəkələrdə olayla bağlı müzakirələr davam edir. Bu hadisənin bizim üçün ən maraqlı tərəfi isə odur ki, həmin ədalətli qərarı verən referi Azərbaycanın Olimpiya kateqoriyalı beynəlxalq dərəcəli hakimi Hicran Şərifovdur. Elə bu səbəbdən də hazırda Braziliyada olan hakimimizlə əlaqə yaratdıq və Hicran Şərifov məlum hadisə ilə bağlı "AZƏRBAYCAN" qəzetinə eksklüziv müsahibə verdi.

*- Hicran müəllim, Olimpiya oyunları zamanı uzun müddət yaddaşlardan silinməyəcək maraqlı hadisələr yaşandı. Ancaq onlardan ən əsası məhz sizin hakimlik etdiyiniz oyuna təsadüf etdi. Əslində, orada nə baş vermişdi?*

- Öncə onu deyim ki, Rio Olimpiadasında mən iki maraqlı olayla qarşılaşdım. Öncə qadınlar arasında keçirilən güləş yarışlarında bürünc medal uğrunda mübarizədə isveçli Sofiya Mattsson və çinli Çjun Syueçun arasında keçirilən görüşdə döşək hakimi təyin olunmuşdum. İsveçli güləşçi bu görüşdə qalib gəldi və o qədər sevinc hissi keçirirdi ki, döşək kənarındakı məşqçiləri dura-dura boynuma sarıldı və qələbəsini ilk olaraq mənimlə paylaşdı. Bu da zaldakı tamaşaçılar tərəfindən müsbət emosiya ilə qarşılandı və dünya mediasında geniş işıqlandırıldı.

Yarışların son günündə isə bizim iki idmançımız Toğrul Əsgərovla Xetaq Qazyumov finala yüksəldikləri üçün azərbaycanlı hakim kimi final görüşlərinə təyinatım mümkün olmadı və mənə bürünc medal uğrunda keçiriləcək görüşü idarə etmək tapşırıldı. Monqolustan və Özbəkistan güləşçiləri bürünc medal uğrunda mübarizə aparırdılar. Bu pəhləvanlar həqiqətən, tatamidə elə fəal güləşirdilər ki, onlara passivliyə görə xəbərdarlıq verilmədi. Bir dəfə ancaq şifahi xəbərdarlıq etdim. Çox gərgin mübarizə gedirdi. Birinci 2 xalı Özbəkistan güləşçisi aldı, monqolustanlı pəhləvan isə hesabı bərabərləşdirdi. Sonra özbək idmançı daha aktivlik nümayiş etdirdi və 6:5 hesabı ilə irəli çıxdı. Ancaq monqol pəhləvan ruhdan düşməyərək inamla güləşdi və nəhayət, rəqibin ani səhvindən istifadə edib 2 xal qazanaraq hesabı 7:6 öz xeyrinə dəyişdi. Son dəqiqələrə qədər bu üstünlüyünü qoruyurdu və vaxtın bitməsini gözləyirdi, mübarizədən yayınmağa çalışırdı. Mən ona bir dəfə şifahi xəbərdarlıq etdim. Ancaq gördüm ki, idmançı döşəkdə qaçır. Dayanması üçün "Stop" dedim və ingilis dilində "ehtiyatlı ol" deyərək onu saxlamaq istədim. Ancaq xeyiri olmadı. Vaxtın bitməsinə bir neçə saniyə qalırdı və monqol pəhləvan əllərni yuxarı qaldıraraq qələbə qazandığına işarə edirdi. Özbək idmançı sonadək mübarizə aparmaq üçün irəli atılsa da, rəqibi dayanmadan qaçdığı üçün onu tuta bilmirdi. Beynəlxalq Güləş Federasiyasının (FİLA) qanunlarına əsasən, bir idmançı son saniyədə belə mübarizədən yayınırsa, güləşi hörmətdən salır və cəzalanır. Mən xüsusi xəbərdarlıq edərək Özbəkistan güləşçisinə 1 xal verdim və hesab bərabərləşdi. Yan hakim, döşək rəhbəri, münsiflər tərəfindən də verdiyim qərar yekdilliklə qəbul olundu və 2 saniyədən sonra vaxt bitdi. Monqolustan təmsilçiləri çox sevinirdilər. Sevincdən onlar döşəkdə bayram edirdilər.

*- Qaydalara əsasən, hesabı bərabərləşdirən idmançı qalib sayılır. Bəs, Monqolustan təmsilçiləri bunu bilə-bilə nə üçün bu qədər sevinirdilər?*

- Mən özbək idmançıya bir xalı 5:58-də elan etdim və 2 saniyədən sonra oyun başa çatanda onlar qələbəni bayram etməyə başladılar. 7:7 nəticəli hesab ekranda göstərildi və özbək güləşçinin xalının altında xətt var, yəni, qalib budur. Monqolustan idmançısının xəbərdarlığı var. Bundan sonra bayram edən monqollar sanki ayıldılar və şou başlandı. Protest verdilər və münsiflər heyəti mənim qərarımı bir daha təsdiqlədi. Bunu monqollar heç cür qəbul etmirdilər. Məşqçi üst geyimini soyunmağa başladı. Ardınca digər məşçi eyni hərəkətləri təkrarladı. Onları döşəkdən də çıxarmaq olmurdu. Qərara gəlindi ki, yenidən həmin ana baxılsın. Münsiflər heyəti bir daha videoyazıya baxdı və mənim qərarımı qüvvədə saxlayaraq, Özbəkistan idmançısının qalib gəldiyini bəyan etdi.

*- Bu olayın Monqolustan Güləş Federasiyasına mənfi təsiri olacaqmı?*

- Mütləq olacaq. Mən olay başlayanda məşqçilərə öncə sarı vərəqə göstərdim. Sonra hadisələrin bu cür məcraya yönəlməsi ilə onlar qırmızı vərəqə aldılar. Bu cəzaya görə onlar maddi cərimə ödəyəcəklər. Yəqin ki, Beynəlxalq Güləş Federasiyası da bununla bağlı öz kəskin qərarını verəcək. Bu, güləş idman növünü gözdən salmağa yönəlmiş bir addım idi. Bütün dünya ictimaiyyəti gördü ki, verilən qərar ədalətli qərardır və özbək idmançı bu görüşdə qalib gəlib. Monqollar isə öz səhvlərini bildilər.

Bu, bir daha güləş qanunlarının sərtliyindən, güləş yarışlarında ciddi nəzarətin olduğundan xəbər verdi. Bəyan edildi ki, güləş uşaq oyunu deyil və Olimpiya oyunlarına təyin olunan hakim doğru, ədalətli qərar verib. Dünyanın ən mötəbər tədbirində bu cür yaramaz hərəkət etmək hər kəsə baha başa gələ bilər.

*- Görüşdən sonra Sizə hər hansısa bir etiraz, təzyiq göstərilmədi ki?*

- Xeyr, heç bir təzyiq olmadı və ola da bilməzdi. Çünki bu, Olimpiya oyunlarıdır və burada təmsil olunan hakimlər beynəlxalq dərəcəli referilərdir. Mən də Azərbaycan Respublikasını təmsil edən Olimpiya kateqoriyalı beynəlxalq dərəcəli hakiməm. Oyundan sonra Beynəlxalq Güləş Federasiyası tərəfindən də dəstəkləndim və bütün həmkarlarım məni təbrik etdilər. Bildirildi ki, bu hadisə Beynəlxalq Güləş Federasiyasında ciddi müzakirə ediləcək və bütün seminarlarda müzakirə mövzusu olacaq.

Qeyd edək ki, "Şöhrət" ordenli Hicran Şərifov bu cür ədalətli qərarları ilə daim seçilib və təsadüfi deyil ki, 2012-ci ildə Londonda keçirilən Olimpiya oyunlarında dünyanın ən yaxşı hakimi kimi "Qızıl fit" mükafatına layiq görülüb. Azərbaycan Respublikasının "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi", əməkdar məşqçisi, Olimpiya kateqoriyalı beynəlxalq dərəcəli hakimi, idman ustası, həm də Daxili İşlər Nazirliyinin əməkdaşı, polis polkovnik-leytenantıdır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*